AYNUR QAFARLI



# Olar, bir sual verim...

Copyright © 2026 by SEM publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
SEM Publishing House®
(The Licence Number of Publicator: 2019/78643)
AZERBAİJAN AZ: +994 77 331 98 24
USA: +1 631 685 0 853
E mail: sempublhouse@gmail.com
www.sempublishing.az

It is responsibility of the author to abide by the publishing ethics rules.
SEM Publications – 2026©

**ISBN: 979-8-89695-361-6**

Cover Design: Dr. Alvan Jafarov
Mart / 2026
Baku / Azerbaijan
Size = 16x24cm

**Aynur Qafarlı**

# Olar, bir sual verim...

*(duetlər və deyişmələr)*

**"SEM Beynəlxalq Yayın Evi"**
**Bakı – 2026**

**ISBN: 979-8-89695-361-6**

Sözə, fikrə və poetik düşüncəyə qiymət verməyi

bacaran dəyərli ________________________________

**müəllifdən söz hədiyyəsi**

"____"______________202___          ____________

**Redaktor**: **Mahirə Nağıqızı**
*Prezident təqaüdçüsü,*
*filologiya üzrə elmlər doktoru, professor*

**A.A.Qafarlı** (*pedaqogika üzrə fəlsəfə doktoru*)
Olar, bir sual verim... *(duetlər və deyişmələr)*
Bakı, "Elm və təhsil", 2024, 132 səh.

4702000000 / N-98-2024 qrifli nəşr

**ISBN: 979-8-89695-361-6**

**© A.A.Qafarlı, 2024**

# Vermə ayrı bir sual

*(duetlər)*

**Gəl ki küsmüş könlümü**
**Ən şirin kəlmənlə al.**
**Mən sənin həyatınam,**
**Vermə ayrı bir sual.**

## MƏN SƏNƏ SEVGİDƏN NƏ DANIŞIM Kİ...

**Qadın:**

Sevgi bir ocaqdır, yandırıb-yaxır,
Mən sənə sevgidən nə danışım ki?!
Özün məndən yaxşı bilirsən axı,
Mən sənə sevgidən nə danışım ki?!

**Kişi:**

Sevgi bir ocaqdır, yandırıb-yaxır,
Yanan külə dönür, yandıran baxır...
Hər kəs dadmalıdır həsrəti axır,
Mən sənə sevgidən nə danışım ki?!

**Qadın:**

Ömür bağçasında güldür qoxuyan,
Nəğmədir qəlbimdə çələng toxuyan,
Ey könül oxuyan, ey göz oxuyan,
Mən sənə sevgidən nə danışım ki?!

**Kişi:**

Ömür bağçasının çiçəyi sənsən,
Sevgi bir qönçədir, ləçəyi sənsən,
Güllərin gözəli, göyçəyi sənsən,
Mən sənə sevgidən nə danışım ki?!

**Qadın:**

Bir adı inamdır, bir adı güman,
Gəzirəm xəyallı, başımda duman,
Ay məndən eşq uman, məhəbbət uman,
Mən sənə sevgidən nə danışım ki?!

**Kişi:**

İnammı, gümanmı çoxdur sevgidə?
Demə: "Həyat eşqi yoxdur sevgidə!"
Ürəyə sancılan oxdur sevgi də,
Mən sənə sevgidən nə danışım ki?!

**Qadın:**

Yaşadıq bu eşqi tən, özün danış,
Olsun əhvalımız şən, özün danış,
Məncə, bu barədə sən özün danış,
Mən sənə sevgidən nə danışım ki?!

**Kişi:**

Həyatda sevgidir qəlbin dayağı,
Sevgi başdan-başa ehtiram – sayğı,
Sevgi sevənlərdən istəyir qayğı,
Mən sənə sevgidən nə danışım ki?!

**Qadın**:

Qəlbim hər ürəyi ev kimi görmür,
Aynuram, sevdiyim sevgimi görmür,
Gözüm səndən başqa heç kimi görmür,
Mən sənə sevgidən nə danışım ki?!

**Kişi:**

Başlanıb ömrümün yarpaq tökümü,
Tək çəkə bilmirəm bu dərd yükümü.
Eşq talan eyləyib könül mülkümü,
Mən sənə sevgidən nə danışım ki?!

## GƏL GÜLDÜRƏK VÜSALI

**Qız:**

Küsmüşəm, barışmağa
Bəhanə axtarıram.
Səni bir görüş üçün
Şahanə axtarıram.

**Oğlan**:

Görüşümüz bir roman,
Həsrətimiz bir roman.
Xəbərimiz olmayıb,
Yaşamışıq biz roman.

**Qız:**

Gəl ki salım yadına
Eşqi dəniz günləri.
Biz niyə unutmuşuq
Bizə əziz günləri?!

**Oğlan**:

Çiçək-çiçək saralıb
Gül ətirli bağ yolu.
Sənə gedən yoldur, bax,
Ulduzların ağ yolu.

**Qız:**

Məhəbbətdir dünyanın
Ən şirini, şərbəti.
Gəlsən, ürəyin dolu
Mənə məhəbbət gətir.

**Oğlan**:

Telefona baxıram,
Susubdur gör haçandan.
Məndə ürək qalmayıb,
Sənə könül açandan.

**Qız:**

Bir aç ürəyini, gör,
Qan üzlü laləyəm mən.
Qəlbinin dağlarından
Axan şəlaləyəm mən.

**Oğlan**:

Mən bu payız ömrümün
Qırovunda qalmışam.
Hələ də gözlərinin
Girovunda qalmışam.

**Qız:**

Dinlə mənim qəlbimin
Büllur nəğmələrini.
Sənin ilham pərinəm,
Eşit ilham pərini.

**Oğlan**:

Küsmüsən, barışmağa
Bəhanə axtarırsan.
Məni bir görüş üçün
Şahanə axtarırsan.

**Qız:**

Gəl güldürək vüsalı,
Gəl mənim dayağım, gəl.
Tufanlarda azmışam,
Səadət mayağım, gəl.

## MƏNİM ÜRƏYİMİN GÜNAHI NƏDİR

**Qız:**

Məhbəsə salmısan, həbs eləmisən,
Mənim ürəyimin günahı nədir?
Təmiz sevgisinə toz çiləmisən,
Mənim ürəyimin günahı nədir?!

**Oğlan**:

Sənin ürəyinin heyranı ollam,
Lap elə istəsən qurbanı ollam,
Bütün dərdlərinin dərmanı ollam,
Mənim ürəyimin günahı nədir?!

**Qız:**

Üstümə tək səni deyib qayıdır,
Qəddimi kamantək əyib qayıdır,
Arzusu daşlara dəyib qayıdır,
Mənim ürəyimin günahı nədir?!

**Oğlan**:

Bütün varlığımı bürüyüb zülmət,
Könlüm işığına qalıbdır həsrət.
Bu necə sevgidir, bu necə ülfət,
Mənim ürəyimin günahı nədir?!

**Qız:**

Hər səhər eşqinlə oyanır elə,
Alovsuz, tüstüsüz o yanır elə.
Nə vaxtdır yoluna boylanır elə,
Mənim ürəyimin günahı nədir?!

**Oğlan:**

Eh, yazıq ürəyim eşqlə çağlayır,
Sinəmin altında sinə dağlayır,
Arzular pərt olub, ümid ağlayır,
Mənim ürəyimin günahı nədir?!

**Qız:**

Ovub can evimin divarını qəm,
Bahar yağışıdır yanağımda nəm,
Hələ də özümə gələ bilmirəm,
Mənim ürəyimin günahı nədir?!

**Oğlan**:

"Məhəbbət" deyilən bir əzab imiş,
Bu hicran dözülməz iztirab imiş,
Həyat kədər dolu bir kitab imiş,
Mənim ürəyimin günahı nədir?!

**Qız:**

Qırmadı ömründə heç bir insanı,
Xoş günlər istədi ulduzlar sanı,
Düşüb qəm yaşının altda islanır,
Mənim ürəyimin günahı nədir?!

**Oğlan**:

Eşqi qanad açdı hicrana, dərdə,
Bağladı gözünü bir qara pərdə,
Boğulur havasız xatirələrdə,
Mənim ürəyimin günahı nədir?!

**Qız:**

Fərhadı yorulmuş, dağ çapa bilmir,
Aynur şimşəklərdən od qapa bilmir,
Özünə heç yerdə yer tapa bilmir,
Mənim ürəyimin günahı nədir?!

**Oğlan**:

Bu eşqin dağ çapan Fərhadı mənəm,
Səndən aralıykən düşünmə şənəm,
Sənin əsirinəm, ey gözəl sənəm,
Mənim ürəyimin günahı nədir?!

## SƏNSİZ OLMUR, E... OLMUR

**Kişi:**

Yaşadığım ömürləsən, günləsən,
Sənsiz olmur, sənsiz olmur, e… olmur.
İnan mənə, yuxuda da, mənləsən,
Sənsiz olmur, sənsiz olmur, e… olmur.

**Qadın:**

Qoyma ümid qapısını bağlayım,
Ürəyimi həsrətinlə dağlayım.
Az qalıram, dəli-dəli ağlayım,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

**Kişi:**

Göz işığım, ay könlümün zəngini,
Dəyişmisən həyatımın rəngini,
Gözləyirəm hər saniyə zəngini,
Sənsiz olmur, sənsiz olmur, e… olmur.

**Qadın:**

Məndən bir söz gizlətmə ha, hardasan,
Ya başına bir iş gəlib, dardasan?
Sən həmişə sevgin ilə vardasan,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

**Kişi:**

Çox danışma, yaxşı, bəsdir, az deyin,
Hava xoşdur, çıx bir gəzək, dur geyin!
Sənsiz, vallah, dadı qaçıb hər şeyin,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

**Qadın:**

Açıq qalıb Aynurunun qolları,
Həyata bax, arzu yarı, yol yarı...
Qarğıyacam gəlmədiyin yolları,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

## VERMƏ AYRI BİR SUAL

**Oğlan:**

Yenə həmin o nəğmə
Qulağımda səslənir.
Görüşünə getməyə
Ürəyim həvəslənir.

**Qız:**

Tel-tel olardı könlün,
Söylə, varmı yadında?
Haralara getmirdik
O nəğmə qanadında?

**Oğlan**:

Şirin bir nəğmə kimi
Könlüm istəyir səni.
Gəlim keçim o yerdən
Bir də qarşıla məni.

**Qız:**

Səpilsin gülüşlərim
Çiçəktək yollarına.
Körpə bir uşaq olum,
Sığınım qollarına.

**Oğlan**:

Dolanıram göyləri,
Dolanıram yeri mən.
Yenə həmin o nəğmə, –
"Biri sənsən, biri mən".

**Qız:**

Kədər dönür sevincə,
Həsrət dönür vüsala.
Doyunca dadmamışıq
Bu sevgini biz hələ.

**Oğlan**:

Səni necə danlayım,
Səni necə "oxlayım".
Həkim kimi nəbzini,
Ürəyini yoxlayım?

**Qız:**

Gözünü aç, yaxşı bax,
Ürəyimdə sən varsan.
Oxlama ki, özünü
Vurub yaralayarsan.

**Oğlan**:

Bəs mən necə oxşayım,
Nə təhər əzizləyim?
Heç kim görməsin deyə
Ürəyimdə gizləyim?

**Qız:**

Sənə olan eşqimi
Duyğulardan süzmüşəm.
Arzuları səninçün
Muncuq kimi düzmüşəm.

**Oğlan**:

Sənsiz bilə bilmərəm
Xoşbəxtliyin dadını.
Fərhad kimi çapmışam
Ürəyimdə adını.

**Qız:**

İstəyirəm dünyada
Ən şirin payın olum.
Bu həyat yollarında
Sənə arxayın olum.

**Oğlan**:

Sevgidən kim ölüb ki,
Demək mən də ölmərəm.
Səndən ayrı yaşasam,
Ömürboyu gülmərəm.

**Qız:**

Sənsiz mənim həyatım
Mənasız görünəcək.
Arzularım daima
Arxanca sürünəcək.

**Oğlan**:

Düşünüb bir qərar ver,
Bilirəm, deyil asan.
İstəyirəm qəlbimin
Sakini sən olasan.

**Qız:**

Qəlbimin açarını
Götür, sənə verirəm.
Gözüm heç kimi görmür,
Təkcə səni görürəm.

**Oğlan**:

Mənim bu saf sevgimi
Gülüm, alqışladınmı?
Umu-küsün bitdimi,
Məni bağışladınmı?

**Qız:**

Gəl ki küsmüş könlümü
Ən şirin kəlmənlə al.
Mən sənin həyatınam,
Vermə ayrı bir sual.

## GÜNAHKAR İKİMİZİK

**Qız**:

Günah qoxusu gəlir,
Hava da birtəhərdir.

**Oğlan**:

Bizdə günah yoxdur ki,
Günahkar bu şəhərdir.
Günahkardır şəhərin
Mavi işıqları da.
Günahkardır yiyəsiz
Küçə uşaqları da.
Kim varsa, ömrümüzdə
Hamısı günahkardır.
Naləmizi eşitmir,
Bu şəhər niyə kardır?!

**Qız**:

Şəhərin nə günahı,
Dənizin  nə günahı,
O yolun nə günahı,
O izin nə günahı?

**Oğlan**:

Heç nə dəyişməyibdir,
Həmin yol, həmin izdir.

**Qız**:

Heç nə dəyişməyibsə,
Bəs niyə kimsəsizdir?
Bəs niyə sevgisizdir
Bu böyük şəhər belə?
İşləyib qanımıza
Ən acı zəhər belə.

**Oğlan**:

Sənə elə gəlmirmi
Günahkar bu zamandır?
Zamanın zərbəsinə
Düçar olmaq yamandır!

**Qız**:

Saatın əqrəbini
Lap min dəfə çək geri.
Çətin bir də qayıda
Ömrün ötən illəri.

**Oğlan**:

Həyatlamı, bəxtləmi,
Talelərmi dalaşaq?
Hansı dəryadan keçək,
Hansı zirvədən aşaq?

**Qız**:

Xatirən də qəlbimdə
Olubdur əzik-üzük.

**Oğlan**:

Üç səhv bir düzü yedi,
İndi hansımız düzük?
Sənə elə gəlmirmi
Günah elə bizdədir?

**Qız**:

Ayrı yerdə gəzməyək,
Bizim içimizdədir.
Günah həmin günahdır,
Biz də ki həmin bizik.

**Oğlan** :

Yaxamızı çəkməyək,
Günahkar ikimizik.

## BUNDAN O YANA DA VAR?

**Kişi:**

Ulduzumuz küsüşdü
Asimanda qəfildən.
Sübhə kimi yatmadım,
Qüssə içindəyəm mən.
Sıxır məni dörd divar,
Bundan o yana da var?

**Qadın:**

Könlümdəki sevginin
Sən idin ilk ovçusu.
Sənə gedən yolların
Başqasıymış yolçusu.
Göz yaşımdan oldum xar,
Bundan o yana da var?

**Kişi:**

Ölüm nə cür olur ki,
İndi sənə nə yazım?
Necə sığdın həsrətə,
Yerə, Göyə sığmazım?
Dünya olub mənə dar,
Bundan o yana da var?

**Qadın:**

Bir budaqda oturub,
Min budağa əl atdın.
Səni sevən qəlbimi
Yaraladın, qanatdın.
Könlümdə min ahu-zar,
Bundan o yana da var?

**Kişi:**

Soruşsam çiyin çəkər,
Nə Göy bilər, nə də Yer.
Əgər ölməmisənsə,
Sualıma cavab ver,
Durma belə lal və kar,
Bundan o yana da var?

**Qadın:**

Bir də mənim gözümdə
O məşəl yana bilməz.
Bu ağrı, bu nisgilə
Ürək dayana bilməz.
Ümidimə yağır qar,
Bundan o yana da var?

## ÜRƏK SƏNİ İSTƏYİR...

**Qadın:**

Çöldə qopan tufanlar
Qəlbimin harayıdır.
Yaşatdığın həsrətin
Hələ ki ilk ayıdır.
Xatirələr üstümə
Gəlir, gedir, qayıdır,
Ürək səni istəyir...

**Kişi:**

Heç kim bir də bizimtək
Sevib-sevilməyəcək.
Nə çəkirəm gecələr,
Bir adam, bilməyəcək.
Yəni, bir də o günlər
Qayıdıb gəlməyəcək?!
Ürək səni istəyir...

**Qadın:**

Bir dibçək gülü kimi
Soluram, saralıram.
Havasız bir otaqda
Şam kimi qaralıram.
Sorağını hələ də
Ondan-bundan alıram,
Ürək səni istəyir...

**Kişi:**

Şəfəq çilə üstümə,
Acılara ol bədəl.
Həsrətini unutdur
Bir nəfəsə, əlbəəl.
Gözlərini açınca
Mən gələrəm, sən de: "gəl",
Ürək səni istəyir...

**Qadın:**

Bircə aylıq həsrətin
Oldu ömürdən baha.
Aynur çıxır hər gecə
Göyləri seyrəngaha.
Ay Allahın cəzası,
Gəl çıx, bezmişəm daha
Ürək səni istəyir...

**Kişi:**

Qəlbi qırıq adamam,
Bircə yol gəl insafa.
Doğru deyil aşiqə
Bu qədər cövrü-cəfa.
Axı özgə nə deyim?
Ay zalım, ay bivəfa,
Ürək səni istəyir...

## APAR MƏNİ UZAQLARA

**Qız**:

Ürəyimdə bir arzum var:
Apar məni uzaqlara.
Tut əlimdən, sevgili yar,
Apar məni uzaqlara.

**Oğlan**:

Yanır sənsizlikdən içim,
Pozulubdur ölçüm-biçim,
İstəsən, lap candan keçim,
Gəl aparım uzaqlara.

**Qız**:

Məhəbbətin bəsdir mənə,
Qurban olsun canım sənə,
Əzizintək sıx sinənə,
Apar məni uzaqlara.

**Oğlan**:
Son ver könlümdə hüzünə,
Qat gecəmi gündüzünə,
Qanad açaq Göy üzünə,
Gəl aparım uzaqlara.

**Qız**:
Quru canam, ruhum yoxdur,
Sənsiz mənim yuxum yoxdur,
Sən varsansa, qorxum yoxdur,
Apar məni uzaqlara.

**Oğlan**:
Nolar, məni salma qana,
Dözəmmərəm bu hicrana.
Qoy qalsınlar yana-yana,
Gəl aparım uzaqlara.

**Qız**:
Buludları yara-yara,
Uçaq qərib bir diyara,
Aynur deməz: "Bura hara?!"
Apar məni uzaqlara.

## SƏNƏ GÖRƏ, SƏNƏ GÖRƏ, ÜRƏYİM

**Qadın:**

Dəyişmişəm, bax, saçımın rəngini,
Sənə görə, sənə görə, ürəyim.
Zəng edirsən, götürmürəm zəngini
Sənə görə, sənə görə, ürəyim.

**Kişi:**

Başlayıbdır nəhs illəri ömrümün,
Çoxalıbdır kəsirləri ömrümün,
Qarışıbdır fəsilləri ömrümün,
Sənə görə, sənə görə, ürəyim.

**Qadın:**

Güllü donum geyilməmiş köhnəlib,
Göz yaşımdan yanaqlarım şehlənib,
Bilirsənmi, bu qız niyə kövrəlib? –
Sənə görə, sənə görə, ürəyim.

**Kişi:**

Gözlərimdə gah buluddur, gah yağış,
Qəmli baxır sən gördüyün o baxış,
Könlüm indi yarı yazdır, yarı qış,
Sənə görə, sənə görə, ürəyim.

**Qadın:**

Vüsalının mənzilinə çatmıram,
Həsrətindən gecələri yatmıram,
Evdən çölə bir addım da atmıram,
Sənə görə, sənə görə, ürəyim.

**Kişi:**

Nə sanmısan sən bu boyda eşqi, nə?
Mən sadiqəm əzəl gündən eşqimə.
Verməmişəm öz könlümü heç kimə,
Sənə görə, sənə görə, ürəyim.

**Qadın:**

Aynur indi hardan alsın dözümü?!
Tapammıram bu müşkülə çözümü.
Unutmuşam, itirmişəm özümü,
Sənə görə, sənə görə, ürəyim.

## BİR DAHA SƏHVİMİ GÖRMƏYƏCƏKSƏN

**Qız**:

Gəl məni o şirin röyama qaytar,
Əvvəlki o nağıl dünyama qaytar.
Eybi yox, o şirin yalanlar olsun,
Səkilər, küçələr, dalanlar olsun.

**Oğlan**:

Ötən günlər üçün darıxmışam çox,
Əzizim, dözməyə daha tabım yox...
Çoxdan tərk etmişəm küçə-dalanı,
Atmışam dilimdən hər cür yalanı.

**Qız**:

Ağlını başından alan çox oldu,
Səni tordan-tora salan çox oldu.
Qızlara xəlvəti dönüb baxırdın,
Onların dalınca sutək axırdın.

**Oğlan**:

Əzizim, mən səni itirən gündən
Bilmişəm, qədrini bilməmişəm mən.
O xatirələri yadıma salma,
Qayıt, ötənlərdə ilişib qalma.

**Qız**:

Təki sən gözümün qabağında ol,
Odumun, közümün qabağında ol.
Yaman usanmısam bu ayrılıqdan,
Min dəfə yanmışam bu ayrılıqdan.

**Oğlan**:

Mənim çəkdiklərim bəsdir özümə,
Sevdiyim, son dəfə inan sözümə.
Ömrün sonunadək səninləyəm mən,
Çox əzab çəkmişəm zalım həsrətdən...

**Qız**:

Gəl, qurtar bu soyuq kədərdən məni,
Gəl qaytar özümə, gəl hərdən məni.
Yaman yorulmuşam bu yükdən, yaman,
Nə vaxtdır çin olmur qəlbimə daman.

**Oğlan**:

Sənin qulluğunda hazıram, gülüm,
Sən gülə bilməsən, mən necə gülüm?
Boşaldaq həsrətin ağır yükünü,
Çoxdan gözləyirdim, inan, bu günü.

**Qız**:

Solub gör necə də gülüzlü yarın,
Yoxdur o söhbətli, xoş sözlü yarın.
Nə könlüm sevinir, nə gözüm gülür,
Qəlbimə sözümün qanı tökülür.

**Oğlan**:

Mənəm səbəbkarı əziyyətinin,
Qiyməti böyükdür məhəbbətinin.
Axı mən də səni heç unutmadım,
O təmiz sevgini ucuz tutmadım.

**Qız**:

Könlümdə hisslərin qətliamıdır,
Gəl yandır, ürəyim "bayram şamı"dır.
Səni istəyirəm təzədən görüm,
Sevən ürəyimə təzədən hörüm.

**Oğlan**:

Əzizim, sözündən sevindim yaman,
Bir də ayrılığa vermərəm aman.
Ömrün son ucuna birlikdə gedək,
Hər iki ürəyi biz xoşbəxt edək.

**Qız**:

Bəraət vermişəm hər bir səhvinə,
Dərdimi düzmüşəm ömür rəfinə.
Qəlbimi keçmişlə naxışlamışam,
Mən səni lap çoxdan bağışlamışam.

**Oğlan**:

Bir daha səhvimi görməyəcəksən,
Kədər girdabına girməyəcəksən.
Gözəlim, olmuşam ağlına heyran,
Məni bağışlayan qəlbinə qurban!

## SƏNİ ELƏ SEVİRƏM

**Oğlan:**

Səni elə sevirəm
Hava qədər, su qədər.
Öldürsə də özünü
Kimsə sevməz bu qədər.

**Qız:**

Səni elə sevirəm,
Candan əzizsən mənə.
Sən bütün varlığınla
Safsan, təmizsən mənə.

**Oğlan:**

Səni elə sevirəm,
Ağzımda dilim kimi.
Sərilləm ayağına
Gözəl bir kilim kimi.

**Qız:**

Səni elə sevirəm,
Öz şirin canım kimi.
Ürəyini sanıram
Mən öz ünvanım kimi.

**Oğlan:**

Səni elə sevirəm, –
Baldan şirin sözümsən.
Sən ki mənim varlığım,
Sən ki mənim özümsən!

**Qız:**

Səni elə sevirəm, –
Bütöv canda yarımsan.
O yar söhbəti var ha!
Bax, həmin o yarımsan.

**Oğlan:**

Səni elə sevirəm, –
Ancaq dilimdə sənsən.
İnan ki, qısqanıram
Özümə də səni mən.

**Qız:**

Səni elə sevirəm, –
Qarşında diz çökərəm.
Başqasına baxma ha,
Gözlərini tökərəm!

**Oğlan:**

Səni elə sevirəm,
Hava qədər, su qədər.
O qədər sevirəm ki,
Heç kim sevməz bu qədər.

## MƏN SƏNİN SEVDİYİN "SARI GƏLİN"ƏM

**Qadın:**

Daima damarda dövr edən qanın,
Nur saçan şəfəqin, açılan danın,
Nəfəsin, ürəyin, adın, ünvanın,
Qaynayan təbinəm, ötən dilinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

**Kişi:**

Sən mələk misallı, mən eşq xəstəsi,
Mən bir alıcıyam, sən gül dəstəsi,
Bir eşq nəğməsisən, bir eşq bəstəsi,
Kamanda bəmimsən, neydə zilimsən,
Sən mənim sevdiyim " Sarı gəlin"sən.

**Qadın:**

Bir az səbrin olsun, çox demədim ki,
Könlümü yandırıb, yax, demədim ki,
Naz etdim, mən sənə "yox"  demədim ki,
Səni sevindirən şirin "bəli"nəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

**Kişi:**

Dadaq bu sevginin doyunca dadın,
Adımla yanaşı çəkilsin adın,
Mən doğman, əzizin, yaxının, yadın,
Sənsə diyarımsan, obam, elimsən,
Sən mənim sevdiyim "Sarı gəlin"sən.

**Qadın:**

Mən həm cəfalıyam, həm də vəfalı,
Bir azca sakitəm, bir az davalı,
Aynuram, dəlisov, başı havalı,
Sənin şıltağınam, sənin dəlinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

## HƏYAT YAMAN SIXIB MƏNİ NAR KİMİ

**Qadın:**

Görəndə gizlənib qaçırsan məndən,
Qaçırsan əlçatmaz arzular kimi.
Ürəyim biryolluq sınıbdır səndən,
Nə dostsan, nə də ki yarsan yar kimi.

**Kişi:**

Cümlə gözəlliyin səndədir cəmi,
Səninlə xoş keçir məhəbbət dəmi.
Yalnız eşqin ilə gəzib aləmi
Yaşaram ömrümü ilk bahar kimi.

**Qadın:**

Kim bilir hardasan, hansı qucaqda?!
Ürəyim elə bil yanır ocaqda.
Durmuşam sonuncu dayanacaqda
Köhnə sərnişinsiz bir qatar kimi.

**Kişi:**

Çiçəkli baharsan təbiətində,
Ən gözəl mələksən qız surətində.
Dəyişmə heç zaman məhəbbətində
Ərimə tez yağıb düşən qar kimi.

**Qadın:**

Güzgüyə baxıram, dən düşüb telə,
Yanıma düşübdür qollarım elə.
Amansız bilməzdim taleyi belə,
Həyat yaman sıxıb məni nar kimi.

**Kişi:**

Sənin o ağaran telinə qurban,
İncə gərdəninə, belinə qurban,
Sənin o şipşirin dilinə qurban,
Qalmışam onlara intizar kimi.

**Qadın:**

Silindi yollardan izlərim sənə,
Yol çəkir hər səhər gözlərim sənə,
Təsir eləmirmi sözlərim sənə,
Baxırsan qıraqdan niyə kar kimi?!

**Kişi:**

Ay gözəl, qoy qurban olsun can sənə,
Mənimtək yaxın yox bir insan sənə,
Həsrətlə baxıram uzaqdan sənə,
Qucaq aç ən doğma bir diyar kimi.

**Qadın:**

Aynuram, həsrətlə qəlbimi didim?
Eh, mənim sevgidə qorxaq igidim,
Bəlkə də, dünyanın xoşbəxti idim,
Gəlsəydin vaxtında xilaskar kimi.

**Kişi:**

İlahi, od-alov vardır canında,
Çox şənsən, şərabmı axır qanında?
Aşiqəm, ay gözəl, sənin yanında
Qorxuram, görünəm mən də var kimi.

## OLAR, BİR SUAL VERİM?

**Oğlan:**

Olar, bir sual verim?
Qəlbim səni görəndə
Niyə belə döyünür,
Baxışlarım dən kimi
Yollarında üyünür**?**

**Qız:**

Olar, bir sual verim?
Sən edə bilirsənmi
Hisslərinə nəzarət,
Yaxşı bax, qəlbindəki
Maraqdır, ya məhəbbət?

**Oğlan:**

Olar,bir sual verim?
"Eşq bir meydir", – deyiblər,
Mən bu meydən içimmi,
Gəlib sizin hər səhər
Küçənizdən keçimmi?

**Qız:**

Olar, bir sual verim?
Sevmisənmi haçansa
Məndən başqa birini?
Düzünü de, nə olar,
Ay ömrümün şirini.

**Oğlan:**

Olar, bir sual verim?
Nə yaman əlləşirsən
Bu qədər yerlə-göylə,
Xətrimə dəyməyəcək,
Mənə düzünü söylə.

.            **Qız:**

Olar, bir sual verim?
Dilim yanar, deməsəm,
Gəl tutulma sözümdən:
Niyə mənim hər gecə
Yuxum qaçır gözümdən?

**Oğlan:**

**O**lar, bir sual verim?
Baxışımdan qəlbinə
Sevgi səpsəm, olarmı?
Gecə Ay işığında
Səni öpsəm, olarmı?

**Qız:**

Olar, bir sual verim?
Məhzun baxışınla sən
"Mən sevirəm deyirsən".
Bəs bu necə sevgidir,
İçazə istəyirsən?

**Oğlan:**

Olar, bir sual verim?
Nəyinə bənd olmuşam,
Bu sevginin nəyinə,
Nə vaxt hakim olacam
Aynurun ürəyinə?!

**Qız:**

Olar, bir sual verim?
Hakimim olmaq üçün
Bəlkə, dağlar yarmısan,
Bu eşqin yollarında
Sona qədər varmısan?

## YADINDAMI O GÖRÜŞ...

**Oğlan:**

Yadındamı o görüş?
Hər şeyi unutmuşduq...
Titrək əllərimizdən
Necə möhkəm tutmuşduq.

**Qız:**

Ulduzumuz barışan
O gözəl yay axşamı,
Bir sən idin, bir də mən,
Bir də göylərin şamı.

**Oğlan:**

Gəldin onda sən mənə –
Həyat verməyə gəldin.
Bu eşqin havasına
Rəqs eləyirdi qəlbin.

**Qız:**

Sonra yağış da yağdı,
Gizləndik bir çətirdə.
Əriyib bihuş olduq
Sevgi adlı ətirdə.

**Oğlan:**

Elə vururdu qəlbim
Sinəmdə yeyin-yeyin.
İlk dəfə onda daddım
Sevginin şirinliyin.

**Qız:**

İlk dəfə onda öpdün –
Yanağımdan ilk dəfə.
Anamdan qorxa-qorxa
Gəlmişdim o gün evə.

**Kişi:**

O gün sinəmdə ürək
Elə bildim ikidir.
Ayrı heç kimin deyil,
Dünya tək mənimkidir.

**Qadın:**

Yanırdı ürəyimdə
Odun, ocağın, közün.
Qulağımda hələ də
Səslənirdi o sözün:

**Kişi:**

"Bütün möcüzələrdən
Ən üstün möcüzəsən...
Gəl mənim həyatımı
Varlığınla bəzə sən".

**Qadın:**

Yadındamı o görüş?
Hər şeyi unutmuşduq...
Titrək əllərimizdən
Möhkəm-möhkəm tutmuşduq.

## KÖKSÜN ALTDA SOLDAYAM

**Oğlan**:

Gedirəm, salamat qal,
Mənsiz heç darıxma sən.
Qayıdıb gələcəyəm,
Ürəyini sıxma sən.

**Qız**:

Salamat get, sevgilim,
Əminəm, gələcəksən.
Həmişə səninləyəm,
Heç vaxt düşünmə təksən.

**Oğlan**:

Vallah, bilmirəm sənsiz
Harda, necə qalacam?!
Yaşamaqçün gücümü
Ayrılıqdan alacam.

**Qız**:

Düzünü de, mənəmmi,
Könlündə biri varsa?!
Onu özünlə apar,
Salamat yeri varsa.

**Oğlan**:

Yollar ilana bənzər –
Qıvrılır mənim kimi.
Görən, sənin də bağrın
Qovrulur mənim kimi?

**Qız**:

Ağlamaq istəyirəm,
Artıq dolhadoldayam.
Buna çox əminəm ki,
Köksün altda – soldayam.

**Oğlan**:

Eh, ayrılıq sinəmdə
Soyuq bir xəncər yeri...
Bu qədər həsrətinlə
Çətin sağ dönüm geri.

**Qız**:

Bax o yanında gedən
Ürəyimin özüdür.
Tək səndən gözlədiyim
"Tez dönəcəm" sözüdür.

# ƏLVİDA VƏ NİDA

## Oğlan:

Bilirsənmi, gözəl qız,
həyatı anlamaq çətindir.
Sınaqdan keçməyən mən yox,
sənin məhəbbətindir.
Ömrün çətin anlarıydı,
özümdən əmin ola bilmədim...
Bu səbəbdən "fırtınalı dənizdə"
xilasedici gəmin ola bilmədim.
Sən elə ilk görüşdə olduğuntək qalmısan,
özünü şübhələrlə yanar oda salmısan.
Mənasını itirmiş gözəl-gözəl sözlərin
və bir də ağlayan gözlərin...
Sən elə bilirdin sevgi bir oyuncaqdır.
Bax, əzizim, həmin sevgi
üstünə su səpib söndürdüyün ocaqdır.
Mən bütün varlığımla sevirdim,
sönmüş sevgini alovlandırmaq olmaz,

yanmış qəlbi bir daha yandırmaq olmaz.
Bağışla, əzizim, bağışla...

**Qız**:

Bizimki də bura qədərmiş, demə.
Yaşadığımız o xoş günlər hədərmiş, demə.
Bunu bu gün anladım,
olub-keçənlərə görə
özümü danladım.
Məhəbbət bir tormuş,
sevənlərin gözləri kormuş...
Günah görmürəm səndə,
bilmədən günahıma yenildim mən də.
Bəhanə dinləməyə yoxdur daha həvəsim,
görürsənmi, heç titrəmir də səsim.
Ayağına taxdığın yalandan qalma geriyə.
Çıx get!
Əlvida… və nida!

# Gəzdir əl ürəyimə

*(deyişmələr)*

**Sənə olan eşqimi**
**Duyğulardan süzmüşəm.**
**Misraları səninçün**
**Muncuq kimi düzmüşəm.**

.

## BAŞIMA XEYİR!

*Oğlanın dilindən*

Qəfil ürəyimi vurarmı, yesəm,
Bu eşqə acımmı? Başıma xeyir!
Çox isti duyğular dönür başıma,
Anammı, bacımmı? Başıma xeyir!

Heç zaman yalana çəkmədim mala,
İlahi, sən özün xeyirə cala,
O kimdir, qapımı qırır az qala,
O kimdir, açımmı? Başıma xeyir!

Ömür xırmanımı külək sovurur,
Bir gün bu vuranda, bir gün o vurur,
Biri var, canımı odda qovurur,
Bu mənim sacımmı? Başıma xeyir!

Əkib göyərdəcəm eşqimi dən-dən,
Bir başında mənəm, bir başında sən.
Bu yolda gedəcək birisi hökmən,
Başımmı, tacımmı? Başıma xeyir!

Durub naz edirsən Aya, Günəşə,
Məhəbbət dərsini öyrəndin "beş"ə.
Nə vaxtdır çəkibdir yuxumu ərşə,
Götürüb qaçımmı? Başıma xeyir!

## MƏN GƏLİN KÖÇÜMMÜ?

*Qızın dilindən*

Bir sevgi qəlbimin qapısın döyür,
Boy! Durub açımmı? Başıma xeyir!
Yığıb ətəyimi, yanına düşüb,
Qoşulub qaçımmı? Başıma xeyir!

Görürəm, əlində bir qab gətirib,
Başı olub eşqdən xarab, gətirib.
Deyir ki, butamsan, şərab gətirib,
Götürüb içimmi? Başıma xeyir!

Səs edir ağlımın köhnə çax-çaxı,
Bir sükut bürüyüb bu baxhabaxı.
Seçimdə qalmışam, neynəyim axı
Mən bunu seçimmi? Başıma xeyir!

Allah çıxardıbdır qarşıma onu,
Yəqin, subaylığın çatıbdır sonu,
Geyinib əynimə gəlinlik donu,
Mən gəlin köçümmü? Başıma xeyir!

**KƏPƏZMİ, MUROVMU, SAVALANMISAN?!**

**Oğlan:**
Ay qız, nə durmusan, gəl çıxaq gedək!
**Qız**:
Ay oğlan, d**e**yəsən, havalanmısan?!

**Oğlan:**
Gözəl, zarafata salma sözümü,
Könlümdə quş kimi yuvalanmısan.

**Qız:**
**O**ğlan, boğazında qalsın iştahın,
Yetməsin göylərə fəryadın, ahın.
**Oğlan:**
Ay qız, çox olsa da sənin günahın,
Hər zaman dilimdə dualanmısan.
**Qız**:
Oğlan, sağ çıxmazsan söz savaşından,
Çöllərə düşübsən neçə yaşından,
Elə bil çıxıbdır ağlın başından,
Sən harda bu qədər şüalanmısan?!

**Oğlan:**

Nə sənə baxaram, nə göz yaşına,
Özündən betəri çıxsın qarşına,
Özünü qoyubsan dağın başına,
Kəpəzmi, Murovmu, Savalanmısan?!

## SƏN ÖLMÜŞ

*Oğlanın dilindən*

Görürəm ki, hava gəlib başına,
Bağlayacam sən ölmüşü mən ölmüş.
Ağı deyib bir ağlaşma quracam,
Ağlayacam sən ölmüşü mən ölmüş.

Sağ tərəfə fırlanacam solundan,
Uşaq kimi tutacağam qolundan,
Gedən vaxtı qaytaracam yolundan,
Saxlayacam sən ölmüşü mən ölmüş.

Şikayəti edəcəyəm nənənə,
Dərdlərimi yazacağam sinənə.
Sonra isə deyəcəyəm: "Sənə nə?!",
Dağlayacam sən ölmüşü mən ölmüş.

## MƏN ÖLMÜŞ

*Qızın dilindən*

Axtaranda tapammıram mən səni,
Bağlayacam sən ölmüşü mən ölmüş.
Bir gün gəlib öldürəcəm, sonra da
Ağlayacam sən ölmüşü mən ölmüş.

Dərd veribsən, qəm veribsən bolundan,
Çıxardıbsan ürəyimi yolundan,
Sallanacam zəli kimi qolundan,
Saxlayacam sən ölmüşü mən ölmüş.

Xəyalını qaytaracam dünənə,
Yanıq verib deyəcəyəm: "Mənə nə?!"
Çalın-çarpaz dağ çəkəcəm sinənə,
Dağlayacam sən ölmüşü mən ölmüş.

# GÖZÜM AYDIN MƏNİM

*Qızın dilindən*

Dedin: "Sevirəm səni",
Pah, gözüm aydın mənim.
Gah düşüm duman-çənə,
Gah, gözüm aydın mənim.

Qulağıma gəldi ün,
Səndən hər saat, hər gün.
Dedin: "Çəkdim səninçün
Ah", – Gözüm aydın mənim.

Bunu deməklə yəni,
Çoxmu sevirsən məni?
Dedin: "Seçəcəm səni
Şah", – Gözüm aydın mənim.

## GÖZÜM AYDIN MƏNİM

*Oğlanın dilindən*

Başdan bir ad yazmışam,
Cümlə təzad yazmışam,
Sevirəm-zad yazmışam,
Pah, gözüm aydın mənim.

Sevgim odlu sevgidir,
Qol-qanadlı sevgidir,
Bu nə dadlı sevgidir,
Ah, gözüm aydın mənim.

Ucalt, qaldır gözündə,
Öy məni, öy özün də,
Olmusan Göy üzündə –
Mah, gözüm aydın mənim.

Bəsdir uçuq bir kümə,
Sənlə dolu könlümə,
Gəldin, oldun ömrümə
Şah, gözüm aydın mənim.

## TANRI QÜDRƏTİNİ SƏNDƏ SINAYIB

**Oğlan**:

Qoyma su keçməyə, gülüm, aradan,
Kim rəva görər ki, ələmi sənə?
Qurbanı olduğum Uca Yaradan
Nə gözəl çəkibdir qələmi sənə.

**Qız**:

Könlünü eşqimlə tarimar edim,
Dünyanı başına durum, dar edim,
Bir payız inanıb etibar edim,
Bəlkə, sevgi adlı şələmi, sənə!

**Oğlan:**

Gözlərin nurunu hər yana yayıb,
Yalan söz gətirər insana ayıb.
Tanrı qüdrətini səndə sınayıb,
Heyran eləməkçün aləmi sənə.

**Qız:**

Bir gör, neyləmisən xəyallarınla, –
Yormusan mənasız suallarınla.
Barışa bilmirəm bu hallarınla,
Deyirsən, inanım hələmi sənə?!

**Oğlan:**

Bil ki, ürəyimdən getməz bu sövdə,
Məni qabaqkıtək yenə də sev də.
Dünən anama da demişəm evdə,
Elçi göndərəcəm lələmi sənə.

**Qız:**

Özünü sözünlə verirsən ələ,
Qorx ki, qəm üstünə qoşuntək gələ.
Yaxşı tanımırsan Aynuru hələ,
Çəkdirim deyirsən çiləmi sənə?!

# QONŞU OĞLAN, QONŞU QIZ

**Qonşu oğlan:**

Salam, a qonşu qızı,
Necəsən, qadan alım.
Səni gördüm, yenə də
Çiçək açdı əhvalım.

**Qonşu qız:**

Salam, a qonşu oğlan,
Salam-əleyküm  salam.
Səni gördüyüm üçün
Mən özüm də xoşhalam.

**Qonşu oğlan:**

Söylə, yadındadırmı
O illər pərdə-pərdə.
Gizlənpaç oynayanda
Gizlənmişdik bir yerdə.

**Qonşu qız:**

Onda uşaqlar bizə
Çox qəribə baxdılar.
"Nişanlı" adlandırıb,
Üzük belə taxdılar.

**Qonşu oğlan:**

O vaxt arıq qız idin,
Ətə-qana dolmusan,
Büsbütün dəyişmisən,
Leyli-misal olmusan.

**Qonşu qız:**

Heç nə başa düşmürəm
Açıq de, nə deyirsən?
Fikrini anlamadım,
Nə demək istəyirsən?

**Qonşu oğlan:**

Düzünü deyim, çoxdan
Vurulmuşam mən sənə.
İstəyirəm "nişanlı"
Desinlər bizə yenə.

**Qonşu qız:**

Qızını sənə verir
Kiçik xalan, – deyirlər.
Qulağıma çatıb bu,
Yoxsa, yalan deyirlər?

**Qonşu oğlan:**

Axı bunu kim deyir?!
Səni tutubdur gözüm.
Özü-öz taleyini
Həll edənəm mən özüm.

**Qonşu qız:**

Qəfil elə söz dedin,
Gərək düşünüm bir az.
Zənnimcə, sənin kimi
Oğlandan keçmək olmaz.

**Qonşu oğlan:**

Oturuşun, duruşun
Heyran edibdir məni.
Etiraf etməliyəm
Ürəyimdən keçəni.

**Qonşu qız:**

Oğlan, sən ki sevgini
İzhar edirsən mənə.
Qəlbimin açarını
Bağışlayıram sənə.

## BAXMA

**Qız**:

Mən səni unudub atan deyiləm,
Bu qədər həsrətə, məlala baxma.
Sən yenə özünü təmizə çıxar,
Özünü yalanla malala, baxma.

**Oğlan:**

Yetməzmi sən mənə etdiyin zülüm,
Qalıbdır Kərəmtək bir ovuc külüm,
Həyatın şərtləri başqadır, gülüm,
Sən çox da arzuya, xəyala baxma.

**Qız**:

Yaxşı bilirsən ki, sənsiz heçəm də...
Sənsən gündüzüm də, sənsən gecəm də.
Mən səni sevmişəm, sevəcəyəm də,
Bu qədər sorğuya, suala baxma.

**Oğlan**:

Yox, yox! İnanmıram, çıxmaz yadından,
Məktublar gələrdi sənin adından,
Dönmə keçi kimi tərs inadından,
Arada "salam"a, "sağ ol"a baxma.

**Qız**:

Darıxma, bu dünya könlünə darsa,
İşin düz olacaq, Haqq sənə yarsa,
Əgər ürəyində başqası varsa,
Aynurun getdiyi o yola baxma....

# NİYƏ MƏNDƏN KÜSMÜSƏN

**Oğlan:**

Görmürsənmi, başımdan
Hey aşır dərdim, sərim.
Bax, heç bu küsməyindən
Olmayıbdır xəbərim,
Niyə məndən küsmüsən?

**Qız:**

Sevməyim suç deyil ki,
Almağa qisasın yox.
Bəhanəyə, şübhəyə
Əlində əsasın yox,
Bəs sən niyə küsmüsən?

**Oğlan:**

Yaraşırmı heç sənə,
Ay ümidim, pənahım.
Məndə günah axtarma,
Yoxdur zərrə günahım,
Niyə məndən küsmüsən?

**Qız:**

Sən ki mənim gözümdə
Bir dənəsən, bir dənə.
Qəlbinə toxunası
Nə demişəm mən sənə,
Bəs sən niyə küsmüsən?

**Oğlan:**

Neçə gündür mənsizlik,
Söylə, səni üzürmü?
Qabağında diz çöküb,
De, istəyim üzürmü,
Niyə məndən küsmüsən?

**Qız:**

Qalmayıb sən küsəndən
Məndə taqət, nə dözüm.
Bu vəfalı yarından
İncimə, canım-gözüm,
Bəs sən niyə küsmüsən?

## DƏLİNİN BİRİ SƏNSƏN, BİRİ MƏN

**Oğlan:**

İki dəli xatırlansa hardasa,
O dəlinin biri sənsən, biri mən.
İki dəli bir-birinə yardırsa,
O dəlinin biri sənsən, biri mən.

**Qız:**

Su vermişik gözümüzdən güllərə,
Qular kimi qanad açdıq göllərə,
İki dəli eşqdən düşsə çöllərə,
O dəlinin biri sənsən, biri mən.

**Oğlan:**

Ruhum sənin ruhun üçün acıbdır,
Ürəyimin qapısını açıbdır,
Deyirlər ki, iki dəli qaçıbdır,
O dəlinin biri sənsən, biri mən.

**Qız:**

Daş da dönüb çiçək açar diləsən,
Deyirəm ki, eşidəsən, biləsən,
Sən bir dəli mən bir dəli iləsən,
O dəlinin biri sənsən, biri mən.

**Oğlan:**

İki dəli eşq meyindən dəmdir ki,
İki dəli iki kövrək simdir ki,
Ən ağıllı iki dəli kimdir ki? –
O dəlinin biri sənsən, biri mən.

**Qız:**

Aynur salmaz ötən günü heç yada,
Aramızda olmayıb ki, qan-qada?!
İki dənə zır dəli var dünyada,
O dəlinin biri sənsən, biri mən.

## BU QIZ SƏNİ ÖLDÜRƏCƏK, BİLƏSƏN

**Oğlan:**

Al üstündən geyib alı, gəzir ey,
Bu qız məni öldürəcək, deyəsən.
Bu yaz günü çox havalı gəzir ey,
Bu qız məni öldürəcək, deyəsən.

**Qız:**

Qəlbin, ruhun təzəmidir, tərmidir,
Dediyin söz altunmudur, zərmidir?!
Sevən qəlbi partlamamış mərmidir,
Bu qız səni öldürəcək, biləsən.

**Oğlan:**

Fələk nə vaxt biz sayanı sayıbdır?!
Yaxşı düşün, el-obadan ayıbdır.
Demirsənmi, cavan canım hayıfdır?!
Bu qız məni öldürəcək, deyəsən.

**Qız:**

Dərddən, qəmdən neçə paltar geyirsən,
Niyə belə ürəyini yeyirsən?
Nə çox elə "bu qız",  "bu qız"  deyirsən,
Bu qız səni öldürəcək, biləsən.

**Oğlan:**

Qərib durna köç eyləyər payızda,
Gedən dönməz, nə inildə, nə sızla,
Nə tapmışam Aynur adlı bu qızda,
Bu qız məni öldürəcək, deyəsən.

**Qız:**

Didələrin qan-yaş ilə dolacaq,
Gülüstanın bircə günə solacaq,
Aynur sənin Əzrayılın olacaq,
Bu qız səni öldürəcək, biləsən.

## SƏNİ BAXIŞIMLA ÖLDÜRƏCƏM MƏN

**Qız:**

Qıyqacı baxacam gözünə sənin,
Səni baxışımla öldürəcəm mən.
Yalan soyləyəcəm üzünə sənin,
Səni baxışımla öldürəcəm mən.

**Oğlan:**

Baxma ki, bu sevgi naxış-naxışdır,
Qüdrətin əvvəldən mənə tanışdır,
Qadında ən güclü silah baxışdır,
Məni baxışınla öldürəcəksən.

**Qız**:

Mən sənə əzabı çox verəcəm, çox,
Sən məndən hər zaman hər bir yerdə qorx.
Tank ilə, top ilə, tüfəng ilə yox,
Səni baxışımla öldürəcəm mən.

**Oğlan:**

Bil ki, bu dünyada heç zaman heç kəs,
Cani olduğunu anlaya bilməz.
Əllə öldürməyə əllərin gəlməz,
Məni baxışınla öldürəcəksən.

**Qız:**

Mən Aynur canını alacam sənin,
Gözümlə gözündən çalacam sənin,
Cəlladın mən özüm olacam sənin,
Səni baxışımla öldürəcəm mən.

**Oğlan:**

Gəl sevən könlümə, gəl qədəm-qədəm,
Məni eşq meyindən daim eylə dəm,
Bilirəm, mən sənə yaxşı bələdəm,
Məni baxışınla öldürəcəksən.

## HƏYAT GETMƏZ BELƏ YAVAN

**Qız:**

Göy sularda üzən sonan,
Muğanda ceyranın olum.
Mənsiz nəfəs belə alma,
Hər günün, hər anın olum.

**Oğlan:**

Qoy olmasın könül peşman,
Dost birdirsə, mindi düşmən,
Heç gözümdən düşmə, düşmə,
Həmişə heyranın olum.

**Qız:**

Açılıbdır könül qapım,
Sənsz mənim yoxdur tabım,
Hər dərdinə əlac tapım,
Hər cürə dərmanın olum.

**Oğlan:**

Nədir axı mənlə davan?
Həyat getməz belə yavan,
Dönüm sənin suyun, havan,
Damarında qanın olum.

**Qız**:

Qəlbim oynar sübh çağında,
Nar gülüyəm nar bağında,
Aynur ölür qabağında,
İstəmirsən canın olum?!

**Oğlan:**

Necə hopar ruh bədənə,
Mən eləcə hopum sənə.
Bir ömürlük güvən mənə,
Adın olum, sanın olum.

## MƏN ÇOX XƏTALI GÖZƏLƏM

**Oğlan**:

İşin, peşən can almaqdır,
Nazlı, ədalı gözəlsən.
Daima sözlü, söhbətli,
Səsli, sədalı gözəlsən.

**Qız**:

Soyuğum var, alovum var,
Eşq bərəmdə bir ovum var,
Sənin kimi girovum var,
Mən çox xətalı gözələm.

**Oğlan**:

Sözdən xalı toxuyursan,
Gül, bənövşə qoxuyursan,
Ürəyimi oxuyursan,
Dərdimdən halı gözəlsən.

**Qız**:

Mənəm sənin ilham pərin,
Çox düşünmə dərin-dərin,
Çəmənlərin, çiçəklərin,
Güllərin balı gözələm.

**Oğlan**:

Qəlbim, ruhum tam sənədir,
Eşqimdə bu tam sənədir,
Göylərdən butam sənədir,
Mənə butalı gözəlsən.

**Qız**:

Axır gəldin ayağıma,
Tuş olmamış qınağıma,
Tanrı qoyub yanağıma
Sevdiyin xalı, gözələm.

## BƏS MƏN SƏNİN NƏYİNƏM

**Oğlan:**

Sən mənim ürəyimsən,
Canımsan e..., canımsan!
Damarımda dolanan
Qanımsan e...,  qanımsan!
Bəs mən sənin nəyinəm?!

**Qız:**

Tanrıdan qismətimsən,
Odlu məhəbbətimsən,
Daima şöhrətimsən,
Şanımsan e..., şanımsan!
Bəs mən sənin nəyinəm?!

**Oğlan:**

Barımsan, bəhərimsən,
Qəndimsən, şəkərimsən,
Gülüzlü səhərimsən,
Danımsan e..., danımsan!
Bəs mən sənin nəyinəm?!

**Qız:**

Taqətimsən, heyimsən,
Torpağımsan, göyümsən,
Sultanımsan, bəyimsən,
Xanımsan e..., xanımsan!
Bəs mən sənin nəyinəm?!

**Oğlan:**

Kim var ki, səndən əzəl,
Sənsən hamıdan özəl,
Ən dəyərli, ən gözəl,
Xanımsan e..., xanımsan!
Canımsan e..., canımsan.

## GƏL SƏNƏ QUZU KƏSİM

**Oğlan:**

Dayanmışam yolunda,
Sağında, gah solunda.
Lap divanə halında
Əsirəm əsim-əsim,
Gəl sənə quzu kəsim.

**Qız**:

Demişdin ki, gəlirəm,
Lap dərdindən ölürəm.
Gəldiyini bilirəm,
Tələs, mən də tələsim,
Ay sənə quzu kəsim.

**Oğlan:**

Eşq dağımdır, eşq dərəm,
Bu bəndimdir, o bərəm.
Heç vaxt ruhdan düşmərəm,
Tükənməzdir həvəsim,
Gəl sənə quzu kəsim.

**Qız:**

Canım, gözüm, ürəyim,
Malım, mülküm, gərəyim.
Üşüyürsən, bələyim?
Bələk olsun nəfəsim,
Ay sənə quzu kəsim.

**Oğlan:**

Sözünə "can" demişəm,
Bir yox, hər an demişəm.
"Özüm qurban" – demişəm,
Ay mənim əziz kəsim,
Gəl sənə quzu kəsim.

## BİRBƏBİR

**Qız:**

Girib sevgi bağından
Gül dərirəm birbəbir.
Sən dəli mən dəliyə
Gül, dərirəm birbəbir.

**Oğlan:**

Gəl deyirəm, gəl bəri,
Ay dilimin əzbəri,
Özümə düşmənləri
Güldürürəm birbəbir.

**Qız:**

Könlüm bir eşq ölkəsi,
Yox gümanı, bəlkəsi.
Məftun olan hər kəsi
Öldürürəm birbəbir.

**Oğlan:**
Nədir bunca şərtlərin?!
Ömür qısa, dərd dərin.
Ocağını dərdlərin
Söndürürəm birbəbir.

**Qız:**
Məntək gözəl bir kəsin,
Eşqi ölüncə bəsin.
Sənə sevgi busəsin
Göndərirəm birbəbir.

**Oğlan:**
Gəzdim hey diyar-diyar,
Dedim: "Məni yar duyar".
Könlümdə hər nəyim var,
Bildirirəm birbəbir.

**Qız:**
Bax Aynurtək göyçəyə,
Dönüb gülə, çiçəyə.
Arzuları gerçəyə
Döndərirəm birbəbir.

## MƏNİM AĞILLI DƏLİM

**Oğlan:**

Mənim dəli ağıllım,
Gerçəyim, həm nağılım.
Könlün həlimdən həlim,
Mənim ağıllı dəlim.

**Qız:**

Nəvaziş əsirgəmə,
Olaram əsir qəmə.
Sənsən sonum, əvvəlim,
Mənim ağıllı dəlim.

**Oğlan:**

Özün bax bu düzümə,
Tale gülüb üzümə.
Təki sən səslə, gəlim,
Mənim ağıllı dəlim.

**Qız:**

Gah sevirəm deyirsən,
Gah da üz çevirirsın.
Fikrin nədir, de, bilim,
Mənim ağıllı dəlim.

**Oğlan:**

Hüzuruna gələcəm,
Son fikrini biləcəm.
Ya olumdur, ya ölüm,
Mənim ağıllı dəlim.

**Qız:**

Bu nə haldır, de məndə?
Görüşünə gələndə
Titrər ayağım, əlim,
Mənim ağıllı dəlim.

**Oğlan:**

Canında can olaram,
Sənə qurban olaram.
Sənsən gövhərim, ləlim,
Mənim ağıllı dəlim.

**Qız:**

Ən gözəl günlər bizim,
Tez gəl, mənim əzizim.
Mənim təkim, özəlim,
Mənim ağıllı dəlim.

**Oğlan:**

Darıxma, döz bir az da,
Gələcəyəm bu yazda.
Min-min ömrə bədəlim,
Mənim ağıllı dəlim.

**Qız:**

Hərarətsən, işıqsan,
Ömrümə yaraşıqsan.
Mənim saflıq heykəlim,
Mənim ağıllı dəlim.

**Oğlan:**

Qəlbim sənlə vurur, bax,
Səni sevirəm ancaq.
Mənim nazlı gözəlim,
Mənim ağıllı dəlim.

**Qız:**

Arzularım şad olur,
Kədər mənə yad olur,
Hər çətində təsəllim,
Mənim ağıllı dəlim.

**Oğlan:**

Musiqidir səsin də,
Nəğmədir nəfəsin də.
Sənsən şirin məzəlim,
Mənim ağıllı dəlim.

**Qız:**

Dünyanın o başına –
Ömrün ahıl yaşına
Gəl birlikdə gedəlim,
Mənim ağıllı dəlim.

## AÇ DİLİMİN DÜYÜNÜNÜ, AÇ GÖRÜM

**Qız**:

İpək telim gülab ətri qoxuyub,
Qəlbim sənə eşq çələngi toxuyub,
Ürəyimi gözlərimdən oxuyub,
Günəş kimi işığını saç görüm,
Aç dilimin düyününü, aç görüm.

**Oğlan**:

Bir sevdanın qorundayam mən daha,
Məhəbbətin torundayam mən daha,
Keçmişəm, son turundayam mən daha,
Şəfqətini sən üstümə saç görüm,
Aç dilimin düyününü, aç görüm.

**Qız**:

Demirəm ki, kədərim ol, ahım ol,
Gündüz Günəş, gecələr də mahım ol,
Gəl ki mənim sultanım ol, şahım ol,
Bu sevgini başımızda tac görüm,
Aç dilimin düyününü, aç görüm.

**Oğlan**:

Yoxdur səni aldatmağa al, dilim,
Can deməkdən yorularmı bal dilim?
Bir arzum var ömür boyu, sevgilim,
Səadəti başımızda tac görüm,
Aç dilimin düyününü, aç görüm.

**Qız**:

Yad aparar, uzaq qoyma gözündən,
Yanım gedim pərvanətək közündən,
Bir busə al, əminsənsə özündən,
Yanağımda, dodağında maç görüm,
Aç dilimin düyününü, aç görüm.

**Oğlan**:

Deyirsən ki, eşq-məhəbbət pirindi,
Gəl bu dərin dəryalara gir indi,
Yanaqların may balından şirindi,
Ver gül kimi yanağından maç, görüm,
Aç dilimin düyününü, aç görüm.

**Qız**:

Ağatlıtək evimizə çapasan,
Məni məndən bir yaz günü qapasan,
Çətin məntək vəfalı yar tapasan,
Eşq oxunu ürəyimə sanc görüm,
Aç dilimin düyününü, aç görüm.

**Oğlan**:

Eşq adamı nağıllarda uyudur,
Olmayanda könlümüzü qəm udur,
Mənim səndən umacağım tək budur:
Aramızda məhəbbəti bac görüm,
Aç dilimin düyününü, aç görüm.

**Qız**:

Əlin yanar, əl uzatma qora, bəy,
Saçı dümağ, bəxti isə qara bəy,
Elə salıb Aynur səni tora, bəy,
Oğulsansa, indi məndən qaç görüm,
Aç dilimin düyününü, aç görüm.

**Oğlan**:
Heyif, bir az gec görmüşəm, gec səni...
İnanmıram, məğlub etsin güc səni,
Qoyarammı, yad aparsın heç səni?!
Hünərin var, başqasıyla qaç görüm,
Aç dilimin düyününü, aç görüm.

## GƏZDİR ƏL ÜRƏYİMƏ

**Oğlan:**
Fikir etmə, çox fikir,
Adamı yıxar, ay qız.
Səni sıxan dərd-kədər
Məni də sıxar, ay qız.
**Qız:**
Hər sonun var əzəli,
İşlər görmə məzəli.
Səni sevən gözəli
Gəl eləmə xar, oğlan.

**Oğlan:**

Ələ ləl ürəyimə,
Gəzdir əl ürəyimə,
Tez ol, gəl ürəyimə,
Bu ömür axar, ay qız.

**Qız:**

Bu Leyli him-cimidir,
Qəlbim kaman simidir,
Fürsət də quş kimidir,
Əlindən çıxar, oğlan.

**Oğlan:**

Qoy alışım, köz ver ki,
Ayrılığa döz, ver ki,
Bəribaşdan söz ver ki,
Mənimsən axır, ay qız.

**Qız:**

Özün edib çəp işi,
İncitmə bu "çəpiş"i,
Adam da heç öpüşü
Başamı qaxar, oğlan?!

**Oğlan:**

Boş deyil ki, sözlərim,
Səni hər vaxt özlərim.
İnanma ki, gözlərim
Kiməsə baxar, ay qız.

**Qız:**

Baxma dalınca yadın,
Aynurdur qol-qanadın.
Elə edərəm adın
Yadından çıxar, oğlan.

## ÇOX SEVİRƏM SƏNİ, LAP ÇOX...

**Nişanlı oğlan:**

Mənim şirin yuxum sənsən,
Çox sevirəm səni, lap çox.
Cismim sənsən, ruhum sənsən,
Çox sevirəm səni, lap çox.

**Nişanlı qız:**

Ay, ulduzlu danımdan da,
Hər bir gözəl anımdan da,
Hətta şirin canımdan da
Çox sevirəm səni, lap çox.

**Nişanlı oğlan:**

Gözəl çoxdur, sənsən seçim,
Mümkün deyil səndən keçim,
Nəyə desən, qoy and içim,
Çox sevirəm səni, lap çox.

**Nişanlı qız:**

Şirin, şəkər sözümdən də,
Baxan nurlu gözümdən də,
Ömrüm-günüm, özümdən də
Çox sevirəm səni, lap çox.

**Nişanlı oğlan:**

Gəzdim Bakı, gəzdim Şəki,
Yar tapmadım sənin təki.
Tanrı özü şahiddir ki,
Çox sevirəm səni, lap çox.

**Nişanlı qız:**

Kağız bilir, qələm bilir,
Ahım bilir, naləm bilir,
Bütün dünya, aləm bilir,
Çox sevirəm səni, lap çox.

**Nişanlı oğlan:**

Olmayaq gəl eşqə yağı,
Söndürməyək gur ocağı.
Ay könlümün bahar çağı,
Çox sevirəm səni, lap çox.

## GƏLİM BARIŞIQ OLUM

**Oğlan:**

Məni ilhama gətir,
Eşqindən aşıq olum.
Ürəyinə ruh verim,
Gözünə işıq olum.

**Qız:**

Girim isti qoynuna,
Aldanım hər oynuna,
Sarılım hey boynuna,
Sənə sarmaşıq olum.

**Oğlan:**

Əriyim nəfəsində,
Çırpınım qəfəsində,
Al, zinət əvəzində
Sənə yaraşıq olum.

**Qız:**

Olum bir tər bənövşə,
Salam verim Günəşə,
Gözlərində həmişə
Şux görünüm, şux olum.

**Oğlan:**

Qalsam da sürgündə mən,
İtmərəm hər ündə mən,
Gərək sənə gündə mən
Min dəfə aşiq olum.

**Qız:**

Zamanın hər anında,
Dövr eyləyim qanında.
Durum sənin yanında
Fikri qarışıq olum.

**Oğlan:**

Hara desən, gəlim mən,
Ürəyimi bölüm mən.
Qanımı tök, ölüm mən,
Qanıma qaşıq olum.

**Qız:**

Tanımırsan məgər sən?!
Aynura ver dəyər sən!
Küsmüsənsə, əgər sən,
Gəlim, barışıq olum.

# GƏLSİN

**Qız:**

Şəklimi göndərirəm,
Bax, qəlbin cuşa gəlsin.
Bal kimi öpüşlərin
Canımda nuşa gəlsin.

**Oğlan:**

Beş gündür dünya, beş ki,
Bu gün var, sabah heç ki!
Elə yaşayaq eşqi
Gəldikcə xoşa gəlsin.

**Qız:**

Toxundun sarı simə,
Könlüm bənddir bir himə,
Gəlirsə, taleyimə
Sənintək paşa gəlsin.

**Oğlan:**

Sənsən qəddim, qamətim,
Addımlayaq gəl mətin.
Qoy mənim səadətim
Səninlə qoşa gəlsin.

**Qız:**

Soyuq olur vidalar,
İtir səslər, sədalar,
Bizə gələn qadalar
Divara, daşa gəlsin.

**Oğlan:**

Həm balımsan, həm arım,
Nəbzim, qanım, damarım,
Qoyma, mənim baharım
Çevrilib qışa gəlsin.

**Qız:**

Yoxdur bu eşqə sorun,
Düşüb könlümə nurun,
Arzula ki, Aynurun
Qoşulub quşa gəlsin.

**Oğlan:**

Çağlayaq  bulaq-bulaq,
Gül açaq budaq-budaq,
Gözəl arzular tutaq,
Qoy o da başa gəlsin.

## VERMƏ YAXANI ƏLƏ

**Oğlan:**

Ay qız, canın yanmasın,
Vəlvələsən, vəlvələ.
Gələndə yer tərpənir,
Zəlzələsən, zəlzələ.

**Qız:**

Su danışır, daş dinir,
Gözlərimdə yaş dinir,
Həyəcan, təlaş dinir,
Toxunanda əl-ələ.

**Oğlan:**

Bəzək vurmuşam sözə,
Gəlməyəsən pis gözə,
Sənin kimi bir gözəl
Görməmişəm mən hələ.

**Qız:**

Gözəl çoxdur, baxıb seç,
İmtahandır, çalış keç,
İnanmağım gəlmir heç,
Yalan demə bir belə.

**Oğlan:**

Yanağın laləm olur,
Göz yaşın jaləm olur,
Başqa bir aləm olur
Qarışanda tel-telə.

**Qız:**

Bərədən keçən ovam,
Bir az da dəlisovam,
Yandıraram, alovam,
Vermə yaxanı ələ.

**Oğlan:**

Saldın eşqinlə dərdə,
Baxıb halımı gör də.
Məni durduğum yerdə,
Yaman saldın əngələ.

**Qız:**

Gəzirsən sağda, solda,
Dəli olursan ol da.
Hələ səni bu yolda
Çox salacam get-gələ.

**Oğlan:**

Tamamlayaq söhbəti
Aynur, cavab ver qəti!
Əldən vermə fürsəti,
Yoxsa, düşərsən dilə.

## XOŞ GÜNLƏR SƏNDƏN GƏLİR

**Ər:**

İllərdir yol gəlirik,
Ömür yarıdan keçib.
O vaxt qəlbim yaxşı ki
Səni bəyənib, seçib.

**Arvad**:

Bir vaxt məni görəndə
Ağlını itirərdin.
Təciliyardım kimi
Özünü yetirərdin.

**Ər**:

Gör kimə vurulmuşdum,
Ağıl vardımı məndə?
Canında az yox idi,
Naz eləyərdin sən də.

**Arvad**:

Naz eləyə-eləyə
Hamıdan yan keçmişəm.
Bəxtim səndə gətirib,
O vaxt səni seçmişəm.

**Ər:**

Nə xoşbəxtəm, İlahi,
Tale gülüb üzümə.
Gündə min yol "afərin"
Söyləyirəm özümə.

**Arvad**:

Elə mən də özümü
Çox bəxtəvər sanıram.
Sən mənə yandığıntək
Mən də sənə yanıram.

**Ər**:

İki oğul, iki qız
Sən mənə bəxş etmisən.
Həm də "ata" sözünü
Ömrümə nəqş etmisən.

**Arvad**:

Sənin sayəndə mən də
Gözəl ana olmuşam.
Səninlə şərik ömrü
Birgə yaşa dolmuşam.

. **Ər**:

Sevgim heç azalmayıb,
Qoşalaşıb Araz-Kür.
Bu xoş həyatçün sənə
Milyon-milyon təşəkkür.

**Arvad**:

Təşəkkür məndən gəlsin
Gözəl ailəmizə.
Qoy bu dünya durduqca,
Tanrı yar olsun bizə.

## TELEFON DEYİŞMƏSİ

**Oğlan:**

Salam, əzizim,
Salam, sevgilim!
Kefin necədir,
Ay zanbaq gülüm?

**Qız:**

Bilmək istəsən,
Səndən inciyəm.
Haqqım da vardır
Mənim inciyəm.

**Oğlan:**

Sənin xətrini
İstəyirəm çox.
İnciməyindən
Heç xəbərim yox.

**Qız:**

Xətrimə dəydin
Sən mənim dünən.
Zəng etmə daha
İncimişəm mən.

**Oğlan:**

Axı neylədim
Xətrinə dəydi?
Səni incidən
Söylə, bir nəydi?

**Qız:**

Sən rəfiqəmi
Tərif eylədin:
"Çox yaxşı qızdır", –
Deyib söylədin.

**Oğlan:**

Nədən küsürsən,
Ay mənim dəlim.
Sənsən dünyada
Təkcə gözəlim!

**Qız**:

Tərif deyirsən
Sən telefonda,
Üzümə söylə
Bunları onda.

**Oğlan:**

İmkan ver mənə
Ay mənim gülüm,
Mən öz səhvimi
Düzəldə bilim.

**Qız:**

Bağışlayıram
Bu dəfə səni.
Gəlim, görüşək,
İnandır məni.

# İçindəkilər:

## *VERMƏ AYRI BİR SUAL*

Mən sənə sevgidən nə danışım ki........................5
Gəl güldürək vüsalı..............................................8
Mənim ürəyimin günahı nədir............................12
Sənsiz olmur, e... olmur.......................................16
Vermə ayrı bir sual...............................................18
Günahkar ikimizik ..............................................24
Bundan o yana da var .........................................28
Ürək səni istəyir...................................................31
Apar məni uzaqlara .............................................34
Sənə görə, sənə görə, ürəyim..............................36
Bir daha səhvimi görməyəcəksən .......................38
Səni elə sevirəm ...................................................43
Mən sənin sevdiyin "Sarı gəlin"əm.....................46
Həyat yaman sıxıb məni nar kimi.......................48
Olar, bir sual verim ..............................................51
Yadındamı o görüş...............................................55
Köksün altda soldayam........................................58
Əlvida və nida .....................................................61

## *GƏZDİR ƏL ÜRƏYİMƏ*

Başıma xeyir ........................................................65
Mən gəlin köçümmü ............................................67
Kəpəzmi, Murovmu, Savalanmısan ...................68
Sən ölmüş ............................................................69
Mən ölmüş............................................................70
Gözüm aydın mənim ...........................................71
Gözüm aydın mənim ...........................................72
Tanrı qüdrətini səndə sınayıb..............................73
Qonşu oğlan, qonşu qız .......................................75
Baxma...................................................................79
Niyə məndən küsmüsən ......................................81
O dəlinin biri sənsən, biri mən ............................83
Bu qız səni öldürəcək, biləsən .............................85
Səni baxışımla öldürəcəm mən............................87
Həyat getməz belə yavan .....................................89
Mən çox xətalı gözələm .......................................91
Bəs mən sənin nəyinəm .......................................93
Gəl sənə quzu kəsim ............................................95
Birbəbir ................................................................97
Mənim ağıllı dəlim...............................................99
Aç dilimin düyününü, aç görüm .......................104

Gəzdir əl ürəyimə.................................................107
Çox sevirəm səni, lap çox... ..................................110
Gəlim barışıq olum...............................................112
Gəlsin ....................................................................115
Vermə yaxanı ələ..................................................118
Xoş günlər səndən gəlir .......................................121
Telefon deyişməsi ................................................124

AYNUR QAFARLI

# Olar, bir sual verim...

qafarli1976@mail.ru
instaqram: qafarli.a
Facebook: Aynur Qafarlı



INTERNATIONAL PUBLISHING
SEM
HOUSE



# AYNUR QAFARLI

Şəki şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavr və magistr pillələrini fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 15.11.2022-ci il tarixli qərarı ilə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. Hazırda ADPU-da elmi işçi vəzifəsində çalışır.

50-yə qədər elmi məqalə, bir dərs vəsaiti ("Azərbaycan dilinin tədrisi metodikasına dair istinad materialları", Bakı-2009), üç şeir kitabının ("Mən Tanrıma sevdalıyam", Bakı-2019 və "Dənizdir, günəşdir, nəğmədir, mənəm", Bakı-2021, "Mən bir eşq bürcündənəm", Bakı-2024) müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Olar, bir sual verim..." kitabı A.Qafarlının oxucuları ilə dördüncü görüşüdür.

AYNUR QAFARLI

OLAR, BİR SUAL VERİM...